*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 343-350* *ISSN: 2663-4406*

***Yubileylər***

Tehran Əlişanoğlu*

# ELMİ VƏ ƏDƏBİ MÜHİT USTADI
## *(Akademik İsa Həbibbəylinin 70 yaşına)*

Akademik İsa Həbibbəyli zəmanəmizin böyük alimidir; adətən kürsülərdən vulkan püskürən bu “böyüklüy”ün ehtişamına valeh olub, sirlərinə çox da varmırıq. Məşhur Hamletin sözləri ilə “zamanın bağlarının qırıldığı yerdə” bu gün bizdə humanitariyanın bütün sahələrini bir-birinə ilgələyən, istiqamətləndirməyi bacaran tarixi şəxsiyyətdir İsa Həbibbəyli. Millət vəkili və Parlamentdə Elm və Təhsil Komissiyasının sədri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Humanitar və İctimai elmlər bölməsinin yönətməni, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru... – azca düşünəndə, dövlətin humanitar və ictimai elmlər sahəsində, mədəniyyət və mədəni quruculuq sferasında siyasəti, perspektiv inkişaf tendensiyaları xeyli qədər də həmin instansiyalara rəhbərlik edən akademikin parlaq zəkası və əməli düşüncəsinə bağlanır...

Akademik İsa Həbibbəyli Ulu öndər Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik məktəbini keçmişdir. Ulu öndər haqqında “Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti” (1998), “Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti” (2002), “Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr” (2013), “Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” (2018-2019) kitablarının müəllifidir. Ulu öndərin təqdirini qazanmış, “Azərbaycan elmi, mədəniyyəti və ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə” Əməkdar elm xadimi fəxri adına (1999) layiq görülmüş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən “Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə” Şöhrət ordeni (2007) və “Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında böyük xidmətlərinə görə” Şərəf ordeni (2009), “Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və elmin inkişafında xidmətlərinə görə” 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə (2019) təltif olunmuşdur.

Uzun illər rəhbərlik etdiyi Naxçıvan Dövlət Universitetinin əsl “yaradılış dastanı” (1996-2013) və yubileydən yubileyə gəlişdirdiyi 85 yaşlı AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun son yüksəliş dövrü (2013-cü ildən bugünə) İsa Həbibbəylinin adı ilə bağlıdır.

Akademik İsa Həbibbəyli miqyaslı ədəbiyyatşünasdır, ədəbiyyat nəzəriyyəçisi və ədəbiyyat tarixçisidir, elm təşkilatçısı və ədəbi mühit qurucusudur...

***

İsa Həbibbəyli ilə ilk tanışlığım “Ədəbiyyat qəzeti”ndə, ani və ötəri olmuşdur; birbaşa təəssüratım da elə bu cür ani: harasa tələsən, vaxtı qovan, hardasa vacib işlər sahibi; amma necə ki, ədəbi mühitdə borc bilirik, baş redaktordan sonra redaktor müavininə də bir salam verək deyib (o zaman mən qəzetdə baş redaktor müavini idim) nəzakət göstərən, mühüm persona təsiri oyatmışdı. Amma çox təəccübümə, bu an mənə hədiyyə etdiyi təzəcə çıxmış “Cəlil Məmmədquluzadə: mühiti və müasirləri” monoqrafiyasında (Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1997) belə bir avtoqraf yazmışdı: “Yeni nəsil ziyalılarının ən zəhmətkeş nümayəndəsi, böyük imkanları aşkar nəzərə çarpan hörmətli

* AMEA-nın müxbir üzvü.

Tehran müəllim üçün Müəllifdən xatirə. 18.X.97". Deməк, o zaman üçün İsa müəllim məni daha çox tanıyırdı, nəinki mən onu. Doğrusu, o vaxtacan İsa Həbibbəylini bir alim, ədəbiyyatşünas olaraq oxumamışdım, ilkin bu kitabdan tanıdım…

"Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası, mənimcə, Cəlil Məmmədquluzadəşünaslıqda dahiyanə əsərdir. Təkcə ona görə yox ki, Əli Nazim, Mirzə İbrahimov, Mir Cəlal, Əziz Mirəhmədov, Yaşar Qarayev mərhələlərindən sonra İsa Həbibbəyli bu fənni daha bir səviyyə qaldırmağa nail olmuşdur, bu öz yerində. İsa Həbibbəyliyə qədər ədəbiyyatşünaslar Mirzə Cəlilin əsərlərinə, yaradıcılığına, həyat yolu və geniş ictimai fəaliyyətinə dayanaraq, başlıca olaraq ədibin irsinin metafizikasına varmağa çalışmış; dahi yazıçı klassik mətnlərində bizə nə deyir, nə vəsiyyət edir… - müstəvisində çabalar göstərmişlər. Şəksiz ki, son nəticə və məram həmin olmaqla, İsa Həbibbəyli başqa yolla gedib ümumən müstəvini dəyişir: həyatı, tərcümeyi-halı, "mühiti və müasirləri"ni dərindən araşdırıb sadəcə təsvir və "bərpa"sına səy etməklə, bütünlükdə Cəlil Məmmədquluzadənin yaradıcılıq yolu, əsərləri və ictimai fəaliyyətini təfərrüatlı bu kontekstdə çözməyə çalışır. Nəticədə Azərbaycan ədəbiyyatında Mirzə Cəlil fenomenini yeni rakursdan – "bioqrafiya və (onun girdiyi) mühit (zəmanə)" konseptindən oxumağa nail olur…

İsa Həbibbəyli "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası ilə həm də ədəbiyyatşünaslığımıza "mühit" anlayışını bir nəzəriyyə və təhlil prinsipi olaraq gətirir, daxil edir. Doğrudur, İsa Həbibbəyliyə qədər də ədib və şairləri yetirən, o cümlədən Mirzə Cəlilin yetişdiyi mühitdən yazanlar çox olmuşdur. Müəllif özü də bunu monoqrafiyaya girişdə iqrar edir. Əvvəla, yazıçının "Xatiratım" əsərində, yaxud Əziz Şərifin "Keçmiş günlər"ində – memuar ədəbiyyatı olaraq. Əziz Mirəhmədovun "Molla Nəsrəddin" monoqrafiyasında – sosioloji planda; mühit – ictimai-siyasi hadisələr, tarixi-mədəni şərait, yazıçını əhatə edən cəmiyyət, siniflər, zümrələr, məişət və güzəranlıq kimi… İsa Həbibbəyli anlayışda özünəxas bir "antropoloji çevriliş" edir; alimin nəzərində "mühit" – ictimai-siyasi, tarixi-mədəni gəlişmələr qalmaqla, ilk növbədə "bioqrafiya"nı əhatə edən insanlardır, müasirlərdir, "müasirini-digər"dir…

Bu məqamı məxsusi vurğulayıram: sadəcə cansız əhatə yox, mühit – insanlardır, fərdlərdir, şəxsiyyətlərdir… Monoqrafiyada müəllif sanki yanında, zamanında, Mirzə Cəlili ilk qədəmlərindən izləyir, hər addımına sual verib, cavab axtarır, obrazını "canlı əhatəsi"ndən (istər "tarix" müstəvisində, istərsə də mətnlərindən) əxz edir. İsa Həbibbəyli qəhrəmanının uşaq çağlarından vəfatınacan, "bioqrafiya"nı kəsən əhatəsini sadəcə fon olaraq təqdim etməklə, sadalamaqla qalmır; adını çəkdiyi, sorağını verdiyi, "bioqrafiya"da yeri, izi, təması, təsirini gördüyü hər kəsi araşdırma obyektinə çevirir, çoxsaylı arxiv sənədləri, faktlar, dəlillər altından insan şəxsiyyətləri, xarakterləri, talelərini kəşf edir; kitablar-monoqrafiyalar-şünaslarla dialoq və polemikada, yaxud Mirzə Cəlilin öz mətnlərinə, obrazların güman olunan prototiplərinə istinadən yazıçının həyatında tüm insanlardan danışır… İnsanlar, insanlar, insanlar… - hər yerdə: ailədə, məktəbdə, seminariyada, Naxçıvanda, İrəvanda, Tiflisdə, Təbrizdə, Bakıda, dünyada insanlar…

Monoqrafiya məni şaşırtmışdı; Mirzə Cəlili biz belə oxumamışdıq axı. Adlı-sanlılara söz yox, necə ola bilər ki, məsələn, hətta Mirzə Cəlilin mollaxanada, ibtidai məktəbdə bir-iki il oxuduğu, kəlmə kəsdiyi, ünsiyyətdə olduğu hər müəllimin, şagirdin, N nəfərin də sorağına düşüb, arayışını verəsən, informasiya olmadığı yerlərdə isə hələ təəssüflə boş xanalara tədqiqi vacib məqam kimi nöqtələr də düzəsən. İsa Həbibbəylinin bir ədəbiyyatşünas kimi usanmaz araşdırıcılıq üslubu heyrətamizdir, qibtə doğurur və həmişə alqışa layiqdir…

O zaman "Azərbaycan" nəşriyyatında hazırlanan "Cəlil Məmmədquluzadə" ensiklopediyasına, unudulmaz ustadım Yaşar Qarayevin tövsiyəsi ilə, Mirzə Cəlilin hekayələrinə dair yığcam oçerklər yazırdım; yadımdadır ki, nəşriyyatda bir "şünaslıq" söhbəti düşəndə, çağdaş Cəlil Məmmədquluzadəşünaslığın son səviyyəsi kimi İsa Həbibbəylini və bir də özümü (! – təbii ki, metafizik uğurlar planında) vurğuladım. Cavanlıqda, fərqinə varmadan, özümüzə-sözümüzə vurğun oluruq; utancıma, sonralar Mirzə Cəlil tədqiqlərini davam etdirmədim. Bəlkə də ortada İsa Həbibbəyli örnəyi vardı – ondan; ya bəlkə "aşkar böyük imkanlarım" müasir ədəbi prosesə məşğul idi – o səbəbə…

***

İsa Həbibbəyli bizim ədəbiyyat tarixçiliyinə yeni bir istiqamət – “mühitşünaslığ”ı gətirmişdir. Yalnız Mirzə Cəlilə həsr olunmuş monoqrafiyasında deyil, bütünlükdə: Nizami Gəncəvidən çağdaşlığacan gəlişən ədəbiyyatımızı o, “ədəbi şəxsiyyət”lərin ətrafında öyrənir, “mühiti və müasirləri” paradiqmasında təsəvvür və şərh etməyə çalışır. Yazır: “Yazıçı Zamanı düşündürən və qabaqlayan böyük ideallar səviyyəsinə çatdıqda ədəbi şəxsiyyətə çevrilir. Ədəbi şəxsiyyət – möhtəşəm ədəbiyyat məbədinin yük daşıyan divarı, onu çiyinlərində saxlayan dayanıqlı sütun, Zamanı və ədəbiyyatı irəli dartan at gücüdür. Ölkəsi və xalqı ilə həmrəylik miqyasındakı səviyyə sənətkarın cəmiyyətdəki və ədəbiyyatdakı yerini müəyyənləşdirir...”

Bir neçə zaman əvvəl professor Yusif Seyidovun “Akademik İsa Həbibbəyli” kitabını (Bakı, “Elm və təhsil”, 2014) oxudum. Mənimcə, çox mükəmməl monoqrafiyada Yusif müəllim İsa Həbibbəylinin alim-ədəbiyyatşünas dəst-xəttinin başlıca cəhətlərini doğru müşahidə etmiş, olduqca geniş yaradıcılığını adekvat olaraq portretlər, şəxsiyyətlər, simalara həsr olunmuş oçerklər üzrə izləmiş, şərh etmişdir. Vərəqləyib görürük, İsa Həbibbəylinin tədqiq etdiyi, qələmə aldığı tarix, elm, sənət, ədəbiyyat dünyasından necə insanlar gəlib-keçibdir: Ümummilli liderimiz Heydər Əliyev və onunla yanaşı Mustafa Kamal Atatürk, akademik Zərifə Əliyeva, akademik Yusif Məmmədəliyev, akademik Məmməd Cəfər Cəfərov, akademik Abbas Zamanov, akademik Fərəməz Maqsudov, akademik Əhməd Mahmudov…; klassiklər: Dədə Qorqud, Nizami Gəncəvi, Məhəmməd Füzuli, M.P.Vaqif…; maarifçilər: Məhəmməd Tağı Sidqi, Məhəmmədağa Şahtaxtlı, Eynəlibəy Sultanov…; romantiklər: Əlibəy Hüseynzadə, Abbas Səhhət, Hüseyn Cavid…; realistlər: C.Məmmədquluzadə, M.Ə.Sabir, M.S.Ordubadi…; sovet dövrü ədibləri: Səməd Vurğun, Yusif və Vaqif Səmədoğlular, Məmməd Araz, Anar, Elçin, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Hüseyn İbrahimov, Zəlimxan Yaqub, Cavad Cavadlı…; ədəbiyyatşünaslar: Əziz Mirəhmədov, Kamran Məmmədov, Yaşar Qarayev, Nizami Cəfərov, Vaqif Yusifli, Qəzənfər Paşayev…; dünya klassikləri: A.S.Puşkin, Ernest Heminquey, Çingiz Aytmatov…; sənətçilər: Tahir Salahov, Oskar Şmerlinq və b. tarixi simalar.

Təsadüfi deyil ki, İsa Həbibbəyli hazırda nəşr olunmaqda olan oncildliyinin ədəbiyyat tarixçiliyini ehtiva edən 2-ci cildini “Ədəbi şəxsiyyət və zaman” adlandırmışdır (Bakı, “Elm və təhsil”, 2017). Və mənim hesablamama görə, kitabda akademikin araşdırmasında ədəbiyyat tariximiz, ayrı-ayrı zamanlarda 67 ədəbi sima ətrafında və hər birinin “mühiti”ndə daha nə qədər (epizodik) “müasirləri” olmaqla cərəyan edir. Uzaq əyyamların hansı bir əlyazmasındasa gözdən-nəzərdən qaçmış detallar, faktlardan da, müasir yazıçı və şairlərin mətnləri üzərində, hər kəsin nəzərlərində olan, amma yalnız iti tədqiqatçı gözünün sezib-fərqləndirdiyi həssas müşahidələrindən də alim bilavasitə “ədəbi şəxsiyyət”ə çıxır, dövrün ədəbiyyatını “ədəbi şəxsiyyət”lərdən təcəssüm etdirir. Və ümumən diqqət yetirdikdə, həmin paradiqmanın aktuallandırılmasını İsa Həbibbəylinin əksər “tarixçilik” kitablarında görürük: “XX əsr Azərbaycan yazıçıları” (1992), “XX əsrin əvvəlləri Azərbaycan yazıçıları” (2004), “Ədəbi-tarixi yaddaş və müasirlik” (2007) və s. Bu, ədəbiyyatşünas-alim İsa Həbibbəylinin nəzərlərindən görünən, eyni zamanda bu gün, çağdaşlıqda, dövrəsində cərəyan edən ədəbiyyat dünyası, mühitidir.

***

Akademik İsa Həbibbəylinin elmi yaradıcılığında ümdə yer tutan digər bir ədəbiyyatşünaslıq sahəsi – ədəbiyyat nəzəriyyəsidir. Ötəri baxanda, 1985-ci ildə yazdığı “Ədəbiyyat nəzəriyyəsi” dərsliyindən savayı, alimin sanki sırf nəzəriyyə kitabı yoxdur. Amma o da bəllidir ki, 1984-cü ildə çap olunmuş ilk monoqrafiyası və namizədlik işi olan “Romantik lirikanın imkanları” və daha sonralar romantizm klassiklərini araşdıran bir çox əsərləri İsa Həbibbəylini elmi ictimaiyyətə romantizmşünas alim, problemin nəzəri üfüqlərini genişləndirmiş bir ədəbiyyatşünas kimi tanıtmışdır.

Eləcə də Cəlil Məmmədquluzadə mövzusunda: "Cəlil Məmmədquluzadə" (1987; 1994; 2002), "Cəlil Məmmədquluzadə və ədəbi mühiti: metodik vəsait" (1990), "Zamanın dühası" (1992), doktorluq tədqiqatı olan "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" (1997; 2009) və s. nəşrləri, realizm klassiklərinə dair onlarla araşdırması İsa Həbibbəylini həm də realizmşünas-nəzəriyyəçi kimi təqdim etmişdir. Ümumən ədəbi növ, cərəyan və janrların yenidən təsnifi, dürüstləşdirilməsi məsələləri İsa Həbibbəylinin tarixçilik araşdırmalarında nəzəri stixiya olaraq üzvi iştirak edir.

Akademik İsa Həbibbəyli ədəbiyyatşünaslıqda özünü akademik Məmməd Cəfər məktəbinin davamçısı olaraq gördüyünü deyir. Məmməd Cəfər Cəfərovun yaradıcılığında da belədir; İsa Həbibbəylinin təsbit etdiyi kimi, sırf nəzəriyyə əsərləri ümdə deyil, amma tarixçiliyi də, ədəbi tənqidi də nəzəri baxışla üzvi vəhdətdə mövcuddur. İsa Həbibbəyli bütün ədəbiyyat tədqiqatlarını nəzəriyyə işığında gerçəkləşdirir, konkret nəzəri postulatlardan "yola çıxır". Əvvəla, bu, (bir daha vurğulayaq) akademikin incəliklərinə qədər işlədiyi "ədəbi mühit" təlimidir və (daha sonra) tədqiqat materiallarının təklif etdiyi növbənöv nəzəriyyə konkretliyidir; deyək, XX əsr üçün məqbul metodolojini orta-çağ poeziyasına tətbiq etmək mümkünsüzdür və bu, öz yanaşmasını istəyir. İsa Həbibbəylinin nəzəri əsaslardan kənarda nəinki hər hansı yazısı, hətta abzası, cümləsi də yoxdur desəm, mübaliğə olmaz. Akademikin ədəbiyyat tarixçiliyini araşdıran məqaləmdə ("Ədəbiyyat tarixçiliyi: universal akademizmdən akademik universaliyaya"- "525-ci qəzet", 23 noyabr 2017), onlarla oçerkini öyrənib, misal üçün, belə bir nəzəri-metodoloji sxem müəyyən edirəm: Ədəbi şəxsiyyətin ədəbiyyat tarixində yeri; həyatının geniş və təfərrüatlı faktları; yaradıcılığının ideya-məzmun istiqamətləri və janrlar üzrə təhlili; ayrı-ayrı yaradıcılıq sahələrində rolu, yenilikçi mövqeyi və poetikası; dövlətçilik (azərbaycançılıq) baxımından ideoloji dəyəri; öyrənilməsinin vacibliyi, aktuallığı, tarixi və problemləri, müasirlik çəkisi və gündəmliyi... – İsa Həbibbəylinin janrından asılı olmayaraq hər bir yaradıcılıq oçerki, arxasında ciddi tədqiqat durmaqla, ədəbiyyat tarixçiliyinin konkret modelini təqdim edir. Onu da təkrar demək artıq olmaz ki, nə zamandır çoxsaylı mülahizələr, təsadüfi müddəa və təxminlər içərisində dolaşıb-qalan ədəbiyyat tarixçiliyimizi İsa Həbibbəyli akademizmə qaytarmış, yenidən nəzəri "relslər" üzərinə yönəltmişdir.

***

Ədəbiyyat tarixçisi və nəzəriyyəçi alim bölünməzliyini İsa Həbibbəylinin son zamanlar işıq üzü görmüş "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyası (Bakı, "Elm", 2019) bir daha göstərdi. Monoqrafiyanı milli Azərbaycan ədəbiyyatının bugünəcən bəlli, öyrənilmiş, araşdırılmış, əyaniləşmiş mənzərələri, tarixən gəlişən portreti, ana dərsliyi, məhz "ədəbiyyat tarixi" kimi də oxumaq olar; yeni nəzəri səviyyədən dərk olunmuş, analitik və sistemli təsniflənmiş, inkişaf məntiqi, təkamülü və poetikası aşkar bir ədəbiyyatın "nəzəriyyə kitabı", örnəyi kimi də. Qətiyyətlə demək olar: monoqrafiyada akademik İsa Həbibbəyli, milli ədəbiyyat tarixçiliyimizin əsr yarımlıq nəzəriyyə və təcrübəsini ümumiləşdirib, tənqidi süzgəcdən keçirib, ideoloji və sosioloji sapmalardan ələyib, habelə bu gün müstəqillik dönəminin bizə verdiyi geniş imkanlar şəraitində müzakirələr, təhlillər, fikir dartışmalarından keçirib, milli ədəbiyyat tarixçiliyinin sistemli nəzəriyyəsini ortaya qoya bilmişdir.

Alimin gərgin əməyinin nəticəsi olaraq, gözümüzün önündəcə, əsasən 2015-1018-ci illərdə yekunlaşmış yeni ədəbiyyat tarixçiliyi konsepsiyasının yığcam təsnifat sxemi monoqrafiyada belə xülasə olunur: "Azərbaycan ədəbiyyatı tarixinin aşağıda təqdim olunan dövrləşdirmə modeli ümumdünya ədəbi proseslərinin gedişatı müstəvisində Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində milli ədəbiyyatın keçdiyi təkamül proseslərinin daxili inkişaf qanunauyğunluğundan, təbii məntiqindən doğan elmi təsnifatdır: 1. Qədim dövr Azərbaycan ədəbiyyatı: Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər); 2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər); 3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər); 4. Orta əsrlər Azərbaycan ədəbiyyatı. Anadilli ədəbiyyat epoxası (XIII-XVI əsrlər); 5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-

XVIII əsrlər); 6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr); 7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin 90-cı illərindən 1920-ci ilədək); 8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü; 9. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-cı illər); 10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən)".

Konsepsiyanın nəinki bugünəqədərki digər təsniflərdən aşkar fərqini, hətta 2015-ci ildə ilk dəfə tezis şəklində bəyan olunmuş variantla (bax: Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri, Xüsusi buraxılış XXVI cild. Bakı, "Elm və təhsil", 2015) müqayisədə də böyük üstünlüyünü görürük; tədqiqat materiallarının dərinliyinə endikcə təsnifat daha da cilalanmış, nəzəri mükəmməllik kəsb etmişdir. Məsələn, belə bir məqama diqqət edirəm, ilk dəfə olaraq alim tarixi mərhələləri şərh edərkən vahid nəzəri prinsipləri gözləyə bilir; əgər təşəkkül dövrü və orta əsrlər mərhələlərini ədəbiyyatın ümumi səciyyəsindən çıxış edərək təsnifləndirirsə, yeni dövrdən başlayaraq ardıcıl bir-birini əvəz edən hərəkat və cərəyanlar tarixinə vurğu salır: erkən realizm, maarifçi realizm, tənqidi realizm və romantizm, sosialist realizmi, modernizm və çoxmetodluluq. Məxsusən, XX yüzilin 60-80-ci illərinin milli özünüdərkə paralel həm də "modernizm" epoxası olaraq qeydə alınması, - bu barədə mülahizələr səviyyəsində çox bəhs olunsa da, – ilk dəfədir və mənimcə, cəsarətli addımdır. Eləcə də konsepsiyada çağdaş dövrün "çoxmetodlu ədəbiyyat" mərhələsi kimi təsbit edilməsi akademik İsa Həbibbəylinin müasir ədəbi proseslə bağlı çoxsaylı araşdırmalarına, habelə son illər ədəbiyyatşünaslığının böyük nailiyyəti sayılan, rəhbərliyi altında hazırlanmış ikicildlik, geniş "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" tədqiqatına (Bakı, "Elm və təhsil", 2016) söykənir.

***

Akademik İsa Həbibbəylinin çağdaş ədəbi proses və ədəbi tənqid sahəsində şəksiz xidmətləri vardır. Alimin klassiklərin müasirliyini gündəmə gətirən məqalələri ilə müasirliyin klassikasını təqdim edən yazıları yanaşıdır. Çağdaş ədəbiyyatın təmsilçiləri barəsində mütəmadi yazmaqla, İsa Həbibbəyli ayrı-ayrı ədəbi şəxsiyyətlərə (Anar, Elçin, Kamal Abdulla, Sabir Rüstəmxanlı və b.), kəşf etdiyi yeni imzalara (Rəşad Məcid, Hüseynbala Mirələmov, Əjdər Ol, Yunus Oğuz və b.) daim diqqət çəkməyi sevir. Bununla belə, söhbətlərində(n), şifahi çıxışlarında(n) İsa müəllimin ədəbi tənqidə elə də iddia etmədiyini eşitmiş, qulaq şahidi olmuşuq; o, çağdaş ədəbiyyat yazılarında da "tarixçi" və "nəzəriyyəçi" olaraq qalmağı daha üstün sayır. Amma bu da şəksizdir ki, son illərdə müasir ədəbi prosesin gəlişməsində akademik İsa Həbibbəylinin rolu, zəhməti ədəbi tənqidçilərdən heç də az olmayıb, bəlkə bir pay da artıq görünür.

2013-cü ildə Ədəbiyyat İnstitutunda "Ədəbi tənqid" şöbəsini təsis etməklə, İsa Həbibbəyli eyni zamanda bir zamanlar (1976-1984-cü illərdə) mövcud olmuş "ilin ədəbi yekunları" – ədəbi ilə tənqidi yekun vurmaq və illik "Ədəbi proses" toplularını nəşr etmək ənənələrini prosesə qaytardı və dirçəltdi. İdeya təzə deyildi və bir çoxları fərz edirdi ki, model işləməyəcək. İşlədi!; artıq altı ildir ədəbi proses tədbiri və topluları ədəbi növlər və janrlar üzrə məruzələrdən başlayıb, getdikcə daha da çox cari ədəbiyyat ilinin çoxsaylı problemlərinə açılır. Bir zamanlar, sovet dönəmində normativ nəzarət mexanizmi olan (aydındır ki, ideoloji-sosioloji ilə yanaşı, həm də pozitiv– estetik planda) "Ədəbi proses" toplularını İsa Həbibbəyli yeni missiyada bərpa edib, müstəqillik dövrünün ("mühit"in) tempinə, getdikcə artan sürətinə çatdıra bildi... Akademikin hər il "Ədəbi proses" toplularına yazdığı "Ön söz"lər cari ədəbi prosesin nəzəri dərki səciyyəsini daşıyır və "ədəbi ilin yekunları"nda baş verən kəmiyyət və keyfiyyət dəyişmələrini addım-addım qeydə alır...

İsa Həbibbəylinin bu gün ədəbi tənqid sahəsində xidmətlərindən daha birisini, israrla ədəbi cərəyanlar nəzəriyyəsini tənqid praktikasına daxil etmək səylərində görürəm. Romantizm, realizm, sosialist realizmi olubsa, modernizm və postmodernizm nədən olmasın?! Akademikin: dekadans, magik realizm, sürrealizm, yeni realizm, postmodernizm, akademizm və s. - getdikcə şövqlənən "izm" axtarıcılığı müstəqillik dövrü ədəbiyyatının kortəbii, stixiyalı təzahür və gəlişmə tendensiya-

larını izah etmək və onu “nəzəriyyə toru”na salmaq niyyətlərindən qaynaqlanır. Və fayda verir də; getdikcə daha çox kortəbii bədiiyyat axınlarının hansısa “nəzəriyyə” instansiyalarında təmərküzləşdiyinin şahidi olur, çağdaş ədəbiyyatın “çoxmetodluluğ”una öyrəşirik və qane oluruq. Perspektivlərdən çıxış edərək, akademik İsa Həbibbəyli Ədəbiyyat İnstitutunda “Ədəbi cərəyanlar” şöbəsini təsis etmişdir...

***

Akademik İsa Həbibbəyli bu gün bizdə yalnız “ədəbi mühit” tədqiqatçısı, “mühitsünaslığ”ın əsasını qoymuş nəzəriyyəçi-alim kimi nəzərə gəlmir, eyni zamanda bu sahədə biliklərini bilavasitə praktikaya çevirməyi bacarmış elm təşkilatçısı və ədəbiyyat yönəltməni olaraq tanınır. İsa Həbibbəyli bütün yaradıcı yönləri ilə mühit qurmağın böyük ustadıdır. Bunu biz beş il ərzində, artıq altı ilin tamamıdır ki, Ədəbiyyat İnstitutunun timsalında parlaq surətdə görürük. Vur-tut, iki yubileyarası fəaliyyətində (İnstitutun 80 və 85 illik yubileylərinə) akademik İsa Həbibbəyli, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunu apogeydə: AMEA-nın bir küncünə sığınıb sakit, qapalı, bir qədər də durğun həyat sürən arxivarius statusundan çıxarıb, gur, coşqun fəliyyətilə geniş ədəbi-mədəni ictimaiyyətin diqqətində duran Ədəbiyyat ünvanı, dövlətin nəzərində olan mühüm humanitar elm mərkəzi mərtəbəsində təqdim və prezentasiya edə bildi.

Akademik İsa Həbibbəyli bu uğura mötəbər ədəbiyyat biliyi, böyük ədəbiyyatşünaslıq stajı, zəngin təşkilatçılıq bacarığı və təcrübəsi ilə nail oldu. 85 yaşlı Ədəbiyyat İnstitutu həmişə ədəbiyyatın və ədəbiyyat elminin bizdə baş məbədgahı statusunu daşımışdır. Ölkə ədəbiyyatçılarının əsas potensialı burada cəmləşmişdir; və lider gərəkirdi ki, onu hərəkətə gətirsin. Yazılmamış patriarxaliyaya görə, tarix boyu rəhbərini institut mühitinin özü yetirmişdi. İsa Həbibbəyli özgəsi deyildi ki; Ədəbiyyat İnstitutunun yetirməsiydi, aspirantlığını burda keçirmiş, onu yetirən elmi mühit, müəllimləri Məmməd Cəfər, Əziz Mirəhmədov, elmi rəhbəri Kamran Məmmədov, yaşlı həmkarı Yaşar Qarayev və b. haqda yazılarında minnətdarlıqla bu faktı anmışdır. Amma akademikin bioqrafiyasında daha da mühüm bir ştrix var. 1975-ci ildə aspiranturaya qəbul olduqdan sonra Məmməd Cəfər müəllim İsa Həbibbəylinin İnstitutda işləməsi qayğısına qalır. Lakin elə bu zaman gənc alimin qarşısında daha bir qapı açılır; Naxçıvan Pedaqoji İnstitutunun Ədəbiyyat kafedrasında müəllim yeri boşalır. Bir sıra səbəblərdən İsa Həbibbəyli ikinci fürsətdən yararlanmalı olur (bax: “Akademik Məmməd Cəfər Cəfərov. Taleyi və sənəti”, Bakı, “Elm və təhsil”, 2009, s.40) Bununla da İsa Həbibbəylinin yaradıcı fəaliyyətinin uzun və şərəfli Naxçıvan dövrü başlayır. Fəlsəfəsinə dalsaq, görünür ki, ədəbiyyatımızın və ədəbiyyat elmimizin xilasında da böyük Naxçıvan təcrübəsi vacib və gərəkmiş...

Akademik İsa Həbibbəyli Naxçıvanda doğulmuş, orta və ali təhsilini Naxçıvanda almış, bir ədəbi şəxsiyyət, alim, müəllim, elm təşkilatçısı və ictimai-siyasi xadim olaraq Naxçıvanda formalaşmış, parlamışdır. İsa Həbibbəyli Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru (1990), daha sonra rektoru (1996-2013) olmuşdur. İsa Həbibbəylinin yaradıcılığında Naxçıvan tematikası mühüm yer tutur; elm və təhsil quruculuğu ilə yanaşı, çağdaş Naxçıvan ədəbi-mədəni mühitinin intişarında da İsa Həbibbəylinin rolu danılmazdır. Böyük ədəbi şəxsiyyətlərlə yanaşı, elm və mədəniyyət sahəsində hünərləri olmuş elə bir həmyerlisini tapmaq çətindir ki, İsa Həbibbəyli onun haqqında yazmasın. Akademik İsa Həbibbəyli doğma vətəni haqqında ensiklopedik səciyyədə irihəcmli “Nuhçıxandan Naxçıvana” monoqrafiyasını (Bakı, “Elm və təhsil”, 2015) qələmə almışdır.

İsa Həbibbəylinin bioqrafiyasında Naxçıvandan böyük ədəbiyyatın geniş yollarına işıq saçan daha bir mənalı ştrix tapırıq. 1970-ci ildə üçüncü kursda oxuyarkən, Elm günləri çərçivəsində üç tanınmış alim “görkəmli filosof Firudin Köçərli, böyük ədəbiyyatşünas Məmməd Cəfər Cəfərov və tarixçi alim Fuad Əliyev” Naxçıvanda olur; Tələbə elmi cəmiyyətinin sədri kimi İsa Həbibbəyli də məruzə edir və çıxışını böyük Nizami Gəncəvinin məlum sözləri ilə bitirir: qüvvət elmdədir, başqa

cür heç kəs, heç kəsə üstünlük eləyə bilməz!". 1975-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olunduqda, Məmməd Cəfər istedadlı gənci tanıyır: "-Səndən ədəbiyyatçı çıxar. Elm qüvvətini göstərdi..." – deyir. İsa Həbibbəyli xatırlayır: "Başa düşdüm ki, Məmməd Cəfər müəllim məni tanıyıbmış. Mənim üçün aspiranturaya qəbul olmaqdan da mühüm iş qəlbimdə özümə ustad seçdiyim möhtərəm müəllimimiz, görkəmli elm xadimi Məmməd Cəfər müəllimin inamını qazanmaq idi..." ("Akademik Məmməd Cəfər Cəfərov. Taleyi və sənəti", Bakı, "Elm və təhsil", 2009, s. 35) Bu ki, Ədəbiyyat İnstitutunda adını daşıdığı dahinin az qala min il əvvəl işıq saçdığı həqiqət bu gün də hökmfərmadır: "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eləyə bilməz!"

***

Akademik İsa Həbibbəylinin böyük ədəbiyyat və elm yollarında Ədəbiyyat İnstitutunda atdığı addımlar, həyata keçirdiyi islahatlar, təşkilati tədbirlər, miqyaslı konfranslar, ardıcıl proqramlar, aktual müzakirələr, analitik məclislər, geniş tədqiqat və nəşr siyasəti və s. barəsində ötən illər ərzində çox yazılmışdır; o sıradan mən də yazmışam. Təkrar etmədən, önəm verdiyim bircə faktı yada salmaq istərdim. Keçən il 85 illik yubileyinə, İnstitutun "sükunət" halından "hərəkət"ə və "hərəkat"a doğru böyük sürətini müşahidə edib, araşdırmalar, faktlar, dəlillər, arqumentasiyalar əsasında bir kitab ərsəyə gətirdim: "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun beş ili akademik İsa Həbibbəyli ilə" (Bakı, "Elm və təhsil", 2018). Bəzi mötəbərlər faktlara, gerçəklərə deyil, metaforasına uyub, ironiya etmişdi: bəs Ədəbiyyat İnstitutu "sürət qatarı" deyil!

Əksinə, bir daha təsdiqləməyə hazıram: çox böyük sürətlər epoxasında yaşayırıq; hətta o qədər ki, bəzən bir zamanlar mindiyimiz qatarların bizi o uzaq mənzillərdə qoyub da indi çox irəlidə şütüdüyündən xəbərimiz olmur... İroniya haqqımızdır, əlbəttə; bütövlükdə özümüzün də internet əsrinin ironiyaları içərisində olduğumuzu bilməsək belə. Biz hazırda bir-birini sürətlə əvəz edən prezentasiyalar-reprezentasiyalar-performanslar dövründə yaşayırıq. Hər hansı ideyanın ayaq açıb yeriməsi üçün əvvəlcə ilkin təqdimatı gərəkir, daha sonra gerçəkləşməsi, artması. Günün elmi və ədəbiyyat ideyaları da həmin bu burulğandan heç də kənar deyil. Çox maraqlıdır ki, hər gün həyatın və ictimai sferanın içərisində iştirakçısı olanlar nədənsə bu "sürət"i ədəbiyyata qıymırlar. Akademik İsa Həbibbəyli az bir müddətdə çevik və usanmaz yaradıcı fəaliyyəti ilə elm və ədəbiyyat aləmini yanlış təsəvvürlərdən, ehkamlardan təmizləməyin örnəyini göstərdi və göstərir. Lap yaxın zamanlardan, yenə yuxarıda söz açdığım "ədəbi proses"lərdən misal deyəcəm.

Hələ ötən il, "ilin ədəbi yekunları"nda akademik İsa Həbibbəyli artıq beş ildir İnstitutda ayaq açıb yeriyən, gəlişən, getdikcə intensivləşən "müasir ədəbi proses"ləri qətiyyətlə "ədəbi proses hərəkatı" adlandırdı. Gerçəklərlə müqayisədə çox da inandırıcı görünmürdü; bir qədər ironik mən də yazı yazıb təsdiqləməyə çalışdım: "Ədəbi proses hərəkatı: praktikadan gerçəkliyə" ("Ədəbiyyat qəzeti", 23 iyun 2018). Və budur, 2019-cu ilin sentyabrında artıq Ədəbiyyat İnstitutunun civarlarından çıxıb, AMEA-nın Elmi Kitabxanasında təşkil olunmuş məclisdə yaşanan izdihamda, "ilin ədəbi yekunları"nı gerçəkdən də "hərəkat" qismində gördük. Ölkəni təmsil edən tüm ədəbiyyat qurumlarından ədəbi tənqidçilər, ədəbiyyatşünaslar, yazarlar, qələm əhli "ədəbi il"i müzakirə üçün bir araya gəlmişdilər. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun çoxsaylı təmsilçiliyindən başqa: BDU, ADPU, BSU, ADNA, AYB, "Ədəbiyyat qəzeti", "Ədəbi 525", "Azərbaycan", "Ulduz", "Kulis.az", "Simsim.az", "Artkaspi.az"-dan nümayəndələrin gəlişi və çıxışları artıq ideyanın gerçəkləşməsindən və Ədəbiyyat İnstitutunun "ədəbi proses hərəkatı"nın mərkəzi mövqeyindən xəbər verirdi. Məclisin yekununda akademik İsa Həbibbəyli müzakirələri ümumiləşdirib, performativ olaraq yeni bir hədəf təyin etdi: "Ədəbi proses hərəkatı"nda "yeni dalğa" formalaşmış, müəyyənləşmişdir! Belə. Hədəfə doğru! – deyib, alqışlayaq.

Akademik İsa Həbibbəyli böyük miqyaslar, nəhəng mədəni aksiyalar ustadıdır. Bunu yaxından müşahidə edib qələmə almaq mənə nəsib olubdur. 2018-ci il 14-24 noyabr tarixlərində Bakıda,

Şamaxı Astrofizika Rəsədxanasında və Moskva yaxınlığındakı elm mərkəzi Dubna şəhərində akademik İsa Həbibbəylinin bilavasitə təşəbbüsü, əzmkarlığı və proyekti əsasında baş tutmuş beynəlxalq "Fizika və lirika: dünya təcrübəsi və MDB ölkələrinin elm və ədəbiyyat reallıqları" konfransı həm çağdaş elmlərin (humanitar, ictimai, dəqiq və təbiət elmlərinin) gəlişmə qovşağında(n), həm uzaq Monqolustandan yaxın Gürcüstana onlarla ölkənin nümunəsində post-sovet məkanı və zamanını görükdürmək baxımından əsl "iri miqyaslar"ın performansına misal ola bilərdi (daha ətraflı: "Bakıdan Dubnaya, Xəzərdən Volqaya: Elm və Sənət dekadası" – "Ədəbiyyat qəzeti", 19 və 26 yanvar 2019-cu il). Onu da vurğulamaq gərək ki, "Fizika və lirika" konfransları 2014-cü ildən başlayaraq, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin özgür proyekti olaraq ölkə daxilində hər il gerçəkləşdirilən elm və mədəniyyət aksiyasıdır...

2019-cu ili Azərbaycan Prezidenti İlham Əliyev "Nəsimi ili" elan etmişdir; eyni zamanda Prezident sərəncamları ilə ədib və alimlərin yubileylərinin – İmadəddin Nəsiminin 650, Cəlil Məmmədquluzadənin 150, Cəfər Cabbarlının 120, Həmid Araslının 110, Məmməd Cəfərin 110, İsmayıl Şıxlının 100, Hüseyn İbrahimovun 100 illik və s. yubileylərin təşkili və gerçəkləşdirilməsi bütövlükdə ölkənin mədəni-mənəvi həyatının məzmunu və mənzərələrini təqdim edir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi ilə birgə AMEA-nın da bu mühüm proqram və aksiyalarda ictimai payı və iştirakı vacibən görünür. Belə ki, bu məqamda akademik İsa Həbibbəylinin məsuliyyətli mövqeyi, böyük təşkilatçılıq bacarığı və əzmkar fəaliyyəti mədəniyyət tədbirlərinin aramsız axınında daha da qabarıq və parlaq nəzərə çarpır. Daim gördüyümüz kürsülərdə akademiki daha coşqun, sevincli, Prezident sərəncamlarından vəcdlə danışan, dövlətin klassik irsə, mədəniyyətə, ədəbiyyata münasibətinin prioritetlərini işgüzarlıqla təhlil və şərh edən görürük. Yubileylər sırasının akademik civarlarda (Ədəbiyyat İnstitutunda, Ədəbiyyat Muzeyində, Əlyazmalar İnstitutunda, Dilçilik İnstitutunda, Folklor İnstitutunda) və cəmiyyətdə: mətbuatda, məktəblərdə, paytaxtda və bölgələrdə "yeriməsi", gərəkli rezonans verməsi akademiki məşğul edir və qayğılandırır. Hər bir mədəniyyət aktının ictimai önəmi ilə yanaşı, elmi qazancları da olmalıdır; akademik İsa Həbibbəyli "Nəsimi ili"ndə İmadəddin Nəsimi haqqında təkcə akademiya institutlarında 20-yə qədər yeni kitabın çap olunmasından fəxrlə söz açır... Daha bir hadisə, Cəlil Məmmədquluzadənin 150 illik yubileyini ölkədə bayram etdiyimiz lap son günlərdə akademikin uzun illər axtarıb üzə çıxardığı "nəsil şəcərəsi"ndən Mirzə Cəlilin nəticəsi Martin Cavanşiri və övladı Pşemislav Cavanşirini dəvət edib ilk dəfə Vətənə gətirməsi böyük şərəf işi olmaqla, ulu ədibin ölməz ruhunu şad etmişdir.

Akademik İsa Həbibbəyli alim ömrünün zirvə çağlarını beləcə coşqun yaradıcılıq enerjisi içində, qarşısında geniş fəaliyyət üfüqləri, böyük əzm və intensiv çalışmalarla qarşılayır. Yazının əvvəlinə, xatirə notlarına qayıdıb, düşünürəm ki, ilkin təəssürat çox zaman aldatmır. O zaman olduğu kimi, bu gün də İsa Həbibbəylini vaxtı qovan, vaxtla əlləşən, hər saat, hər an vaxtı üstələməyə çalışan, nə qədər də vacib işlər sahibi, bizim humanitar elmdə "əvəzsiz persona" olaraq görürük. Özlüyümdə bəlkə bircə şeyə – İsa Həbibbəylini bir qədər gec tanımağıma təəssüf edirəm. Hərçənd gec olsun, güc olsun deyiblər. Bu gün biz, əhatəsində olan "müasirini-digər", akademik İsa Həbibbəylinin nəhəng ədəbi şəxsiyyətindən güc alır, elm və ədəbiyyat yollarında xalq, vətən, millət naminə usanmaz fəaliyyətindən ilhamlanırıq.

Yubiley yaşınız mübarək, İsa müəllim!